# S Ə N Ə T Ş Ü N A S L I Q

**UOT 792.03**
**https://doi.org/10.59849/2311-8482.2024.3.159**

**İNARA MƏHƏRRƏMOVA***

## ÜZEYİR HACIBƏYLİ VƏ MÜSLÜM MAQOMAYEVİN YARADICILIQ ÜSLUBUNUN FORMALAŞMASINDA XALQ MUSİQİSİNİN ROLU

*Folklor hər bir xalqın özünəməxsus yaradıcılıq təfəkkürünü özündə birləşdirərək şifahi ənənələr əsasında inkişaf edir. Folklor, həmçinin hər hansı bir xalqa aid olan yaradıcılıq imkanlarını bütün əzəməti ilə ifadə edir. Buna görə də xalq musiqisi yaradıcı insanların daim diqqət mərkəzində olmuş, incəsənətin müxtəlif sahələrində püxtələşən sənətkarlar folklor nümunələri əsasında öz yaradıcılıqlarına xas olan üslub xüsusiyyətlərini formalaşdırmışlar. Bu formalaşma bəstəkar yaradıcılığından da yan keçməmişdir.*

*Xalq yaradıcılığı və onun müxtəlif janrları Azərbaycan bəstəkarlarının üslubunda mütləq şəkildə öz təcəssümünü tapmışdır. Hələ XX əsrin ilk onilliklərində Ü.Hacıbəylinin fəaliyyətinin bütün sahələrində əsas keyfiyyətlərdən olan xalq yaradıcılığına diqqət və ondan bəhrələnmək ideyası bütün bəstəkarlarımız üçün prioritet məsələ olmuşdur. Bu ideyanı həyata keçirən bəstəkarlarımız əsərlərində, demək olar ki, bütün Avropa musiqi janrlarını xalq musiqi janrlarının xüsusiyyətlərilə zənginləşdirmiş və bu vasitə ilə öz üslublarını formalaşdırmışlar.*

*Xalq musiqisi, folklor nümunələri zənginliyi ilə Ü.Hacıbəyli və M.Maqomayev üçün əvəzsiz mənbə olmuş, bu mənbədən faydalanan bəstəkarlarımız yaradıcılıq üslubunda fərqli xüsusiyyətlər formalaşdırmış və milli musiqi mədəniyyətimizə əvəzsiz töhfələr bəxş etmişlər. Lakin xüsusi qeyd olunmalıdır ki, həm Ü.Hacıbəyli, həm də M.Maqomayev yalnız öz yaradıcılıq təxəyyülü ilə folklor və xalq musiqisi nümunələrinə müraciət etmiş, bu mənbədən istifadə etdikləri bütün əsərlərində yalnız fərdi dəst-xətlərinə xas olan cəhətləri nümayiş etdirərək milli musiqinin inkişafı yolunda böyük xidmətlər göstərmişlər.*

*Təqdim olunan məqalədə Üzeyir bəy Hacıbəyli və Müslüm Maqomayevin ən parlaq əsərlərinin nümunələri üzərində yaradıcılıqlarına xas olan və xalq musiqisinin təsiri altında formalaşan fərdi üslub keyfiyyətləri nəzərdən keçirilir. Həmin əsərlərin kompozisiya quruluşu, harmonik və melodik dilinin xüsusiyyələri, həmçinin lad-tonal münasibətləri işıqlandırılır.*

***Açar sözlər:*** *folklor, xalq musiqisi, yaradıcılıq üslubu, fərdi üslub xüsusiyyətləri, janr*

### Giriş

Məlumdur ki, milli folklorun ayrı-ayrı nümunələri əsrlər boyu yaradıcı insanların diqqət mərkəzində olmuş, dastanlar, nağıllar həmin insanlar üçün zəngin mənbə olaraq incəsənətin müxtəlif sahələrinin (musiqi, rəssamlıq və digərləri) inkişafını şərtləndirmişdir. Təsadüfi deyildir ki, orta əsrlərdə müxtəlif məzmunlu şeir məcmuələrini bəzəyən miniatür rəsm əsərlərində xalq yaradıcılığı elementləri özünün ifadəsini tapmış, şifahi ənənələr əsasında inkişaf edən musiqi mədəniyyəti isə xalq yaradıcılığının mühüm tərkib hissələrini təşkil etmişdir.

Folklor nümunələri vasitəsilə musiqi əsərlərində qeyri-adi dramaturgiyanın, süjet xəttinin,

ümumi inkişafın yaradılmasının mümkünlüyü bəstəkarlarda bu zəngin irsə hər zaman böyük maraq doğurmuşdur. Həmin səbəbdən bəstəkarlar bütün dövrlərdə xalq yaradıcılığı və folklor nümunələrini dərindən öyrənmişlər. Nəticədə xalq tərəfindən yaradılan müxtəlif xarakterli bədii obrazlar bəstəkar yaradıcılığında əhəmiyyətli yer tutmuşdur.

Əsas təhlil

Əsrlər boyu formalaşan xalq mahnı və rəqsləri məzmun və melodik baxımdan hər zaman rəngarəng çalarlara malik olmuşdur. Bu baxımdan hər hansı bir bəstəkarın əsərində xalq mahnı və rəqs melodiyalarının intonasiyalarının duyulması heç də təsadüfi deyildir.

Folklor janrları bütün dövrlərdə akademik musiqiyə üzvi şəkildə nüfuz etmişdir. Müəlliflər xalq yaradıcılığına həssaslıqla yanaşaraq, onun intonasiya və ritmlərini öz əsərlərinə tətbiq etmişlər.

Hələ qədim zamanlardan Avropa bəstəkarlarının yaradıcılığında folklor nümunələri mühüm əhəmiyyət daşıyırdı. Dahi alman bəstəkarı R.Vaqner folklor nümunələrini yüksək qiymətləndirərək operaların özəyində, məhz əfsanə və rəvayətlərin vacilbliyini özünün radikal baxışları ilə ifadə etmişdir. Rus bəstəkarı M.İ.Qlinka isə bu haqda deyirdi: "Musiqini xalq yaradır, biz bəstəkarlar isə onu tərtib edirik". **(4. s.71)**

Azərbaycan bəstəkarlarının yaradıcılığına gəlincə, qeyd etmək lazımdır ki, milli müəliflərimiz klassik bəstəkarların yaradıcılığında xalq musiqisi ilə klassik qanunauyğunluqların sintezi və üzvi şəkildə uzlaşdırılması prinsipini məharətlə mənimsəmişlər. Şübhəsiz ki, bəstəkarların əsərlərində

xalq yaradıcılığının bu və ya başqa variantlarda dolğunluqla ifadə olunması həmin sahəyə peşəkar münasibət tələb edir. Bəstəkar hər hansı bir folklor nümunəsinə müraciət edərkən onun məzmununa, dramaturgiyasına yaradıcılıqla yanaşır və bunun da nəticəsində peşəkar sənət xalq yaradıcılığı ilə üzvi vəhdətdə qovuşur. Həmin əlaqə bəstəkar üslubunu müəyyənləşdirən müxtəlif üsullarla həyata keçirilir. Xalq melodiyalarının işlənməsi harmoniyada, fakturada əks olunaraq fərdi improvizasiya imkanlarının tətbiqini şərtləndirir.

Bəstəkarlar, adətən xalq musiqisinin janr və forma xüsusiyyətlərinə xüsusi əhəmiyyət verir, bir çox hallarda müxtəlif janrları məharətlə sintez edərək öz əsərlərində maraqlı musiqili dramaturgiya yaradırlar. Bəzən folklor nümunəsi əsərlərin mövzusunu tam olaraq deyil, müəyyən parçaları ilə əhatə edir; məsələn, əsərdə melodiyanın ritmik şəkli, intonasiyaları, xarakteri və digər xüsusiyyətləri istifadə olunur. Bu isə xalq musiqisi nümunələrinin bəstəkar tərəfindən öyrənilməsinin zəruriliyini şərtləndirir. Həmin səbəbdən də Azərbaycanda bəstəkarlıq məktəbi formalaşan ilk illərdən etibarən xalq musiqisi nümunələri, mahnılarının nota yazılması mühüm yaradıcılıq məsələsi kimi qarşıya qoyulmuşdu. Yalnız bu vasitə ilə xalq yaradıcılığı nümunələrindən düzgün şəkildə istifadə etmək mümkün idi. Bu fəaliyyətə böyük həvəslə qoşulan Ü.Hacıbəyli və onun tərəfdarları olan gənc bəstəkarlar xalq musiqisini dərindən öyrənir, onları toplayır və nota yazaraq nəşr etdirirdilər. Və bununla da xalq musiqisinin cazibədarlığı və özünəməxsusluğu birbaşa bəstəkar yaradıcılığına təsir edir, peşəkarlıqla ifadə olunur və üslubun əsas elementinə çevrilirdi.Milli bəstəkarlıq məktəbinin hər bir nümayəndəsi öz yaradıcılıq üslubunun təkmilləşməsi, məhz ona xas olan xüsusiyyətlərin musiqi dili vasitəsilə ifadə olunması üçün xalq yaradıcılığından müxtəlif formalarda istifadə edir. Folklor nümunələrinin bəstəkar üçün əhəmiyyətini vurğulayan Ü.Hacıbəyli rus bəstəkarı M.İ.Qlinkanın yuxarıda qeyd olunan fikrinə əsaslanaraq yazır: "İlk gözəl nəğmə və rəqs melodiyalarının yaradıcısı xalq özüdür. Bizə bu gün nümunə olan xalq nəğmələri əsrlərdən bəri işlənə-işlənə yaradılmış və yalnız bizim zəmanəmizdə həqiqi bədii formalar almışdır. Bununla belə xalq yalnız yaradıcı, yalnız kompozitor deyildir; xalq eyni zamanda misilsiz tənqidçi və musiqi əsərlərinin ən yaxşı "istehlakçısıdır", xalq musiqi əsərlərinə diqqətlə yanaşır, yaxşını pisdən seçir və hər çeşidli saxta gözəllikləri və ideyasız dəbdəbələri amansızcasına rədd edir". **(3. s.401)** Bu, eyni zamanda bəstəkar üslubunun xəlqilik mahiyyətini də üzə çıxaran amillərdən biridir. Xalq musiqisinin bəstəkar yaradıcılığındakı rolu və əhəmiyyəti hər zaman aktual mövzu olmuşdur. Bu gün də yeni folklor dalğası bəstəkar üslubunda özünəməxsus şəkildə təzahür olunur. Xalq musiqisi elementlərinin bəstəkar yaradıcılığında ifadə olunmasının və üslub xüsusiyyətlərinin formalaşmasında rolunun müəyyənləşməsi üçün folklor, xalq musiqisinin dərin məzmunu musiqidə düzgün şəkildə təcəssüm olunmalıdır. Bu haqda Ü.Hacıbəyli yazır: "Mən xalq musiqisini əsaslı surətdə öyrənməyincə böyük əsərlər yazmağa tələsməmişəm". **(3. s.402)**

Qeyd olunmalıdır ki, Ü.Hacıbəylinin yaradıcılığında ayrı-ayrı xalq musiqisi nümunələrinin istifadə olunması ənənəsi bəstəkarın ilk operası "Leyli və Məcnun"dan etibarən formalaşmışdır. Xüsusilə də kütləvi səhnələrin canlandırılmasında xalq mahnılarından geniş istifadə edən Üzeyir bəy bəstəkarlıq üslubunda milli elementlərin təzahürünə zəmin yaratmışdır. Əsərin əvvəlində, Uvertüradan sonra səslənən və tamaşaçılarla operanın dramaturji inkişafı arasında əlaqə yaradan "Şəbi-hicran" xorunun melodiyası xalq musiqisi nümunəsidir. Bəstəkar ilk anlardan etibarən əsərin xalq təfəkkürü ilə bağlılığını diqqətə çatdırır. Operanın I pərdəsində səslənən "Qızlar və oğlanların xoru"nda "Evləri var xana-xana" xalq mahnısına müraciət olunmuşdur. Bəstəkar birsəsli xalq mahnısı əsasında ikisəsli xor yaradaraq, onu soprano və tenor partiyalarına həvalə etmişdir. Bu cəhət fakturada qeyri-adi elementləri üzə çıxarır və xorun melodiyası milli musiqiyə xas olxan zəngin melizmlərlə dolğunlaşır.

Klassik harmoniya qanunauyğnluqları vasitəsilə milli musiqi nümunəsinin uzlaşdırılması üsulu Ü.Hacıbəylinin bəstəkarlıq üslubuna xas olan xüsusiyyətdir.

*Nümunə:*



"Leyli və Məcnun" operasında xalq melodiyalarının zəngin intonasiyalarından istifadə olunması Ü.Hacıbəylinin bəstəkarlıq üslubunda çoxsəsli təfəkkürün formalaşmasına şərait yaradır. Beləki, ilk operasında Azərbaycan xalq musiqisinin təksəsli quruluşunu Avropa klassik musiqisinin çoxsəsli sadə formaları ilə əlaqələndirən bəstəkar yaradıcılığını fərdi xüsusiyyətlərlə zənginləşdirir. "Şəbi-hicran" və İbn-Səlamın elçilələrinin xorunda, V pərdədən "Arazbari" ritmik muğamına əsaslanan orkestr girişində çoxsəsli laylar yaradan bəstəkar xalq musiqisi nümunələri əsasında üslubuna xas olan dəst-xətt nümayiş etdirərək, ilk dəfə xalq musiqisi nümunələrinin çoxsəsli kimi inkişaf etdirməyin mümkünlüyünü diqqətə çatdırmışdır. Bu yeni üsul isə sonralar digər bəstəkarlarımızın üslubu üçün əsas meyarlardan biri olmuşdur.

Göründüyü kimi, "Leyli və Məcnun" operasında Ü.Hacıbəyli xalq yaradıcılığından istifadə problemini xalq musiqi nümunələri əsasında zəngin dramaturgiya yaratmaqla həll edir. Əsərdə, həmçinin xalq musiqisi intonasiyalarının bəstəkarın yaradıcılıq üslubunun formalaşmasına əhəmiyyətli təsiri də nəzəri cəlb edir.

Füzulinin ərəb əfsanəsi əsasında yazdığı poemanın motivlərinə əsaslanan dərin məzmunlu əsərdə xalq musiqisi intonasiyaları ilə zəngin kompozisiya quran Ü.Hacıbəylinin yaradıcılıq üslubunun nailiyyətləri ilkin formada təzahür etmişdir. Bu xətti bəstəkar xalq dastanları əsasında yazdığı digər muğam operalarında da davam etdirmişdir.

Ü.Hacıbəyli özünün musiqili-səhnə əsərlərində də xalq musiqisindən böyük ustalıqla istifadə etmişdir. Bəstəkar, xüsusilə də obrazların xarakterinin açılmasında xalq yaradıcılığı nümunələrindən əsas vasitə kimi bəhrələnmişdir. Bu mənada, "O olmasın, bu olsun" operettasından Məşədi İbad obrazını özünəməxsus şəkildə canlandıran musiqi nömrəsinin əsasını təşkil edən "Uzundərə" rəqsini qeyd etmək olar. Baş qəhrəmanın həmin rəqsin bir qədər dəyişdirilmiş melodiyasına əsaslanan "Mən nə qədər, nə qədər qoca olsam da" mahnısı onun xarakterini tam mənası ilə açaraq musiqili ifadədə maraqlı elementlər üzə çıxarır.

*Nümunə:*




Ü.Hacıbəyli "Arşın mal alan" operettasında xalq mahnı və rəqslərini məharətlə işləyərək əsl xalq ruhlu ecazkar melodiyalar yaratmışdır. Əsərin Uvertürasında "Boynunda var sarılıq" xalq mahnısının orijinal işlənməsini xüsusilə qeyd etmək lazımdır. Ü.Hacıbəyli xalq mahnısının melodiyasını olduğu kimi deyil, özünün yaradıcılıq təxəyyülü ilə zənginləşdirərək istifadə edir. Uvertürada aşıq musiqisi üçün səciyyəvi olan intonasiyalar, məsələn "g" səsinə əsaslanan kvarta-kvinta əlaqəsi musiqi nömrəsində xalq yaradıcılığı elementlərinin fərdi yaradıcılıq üslubu ilə ifadə olunmasına bariz nümunədir.

Maraqlıdır ki, "Arşın mal alan" operettasında xalq mahnılarının melodik inkişafı musiqili nömrələrin klassik Avropa musiqisində mövcud olan sadə formaları ilə təmin edilir. Bəstəkar həmin nömrələrdə kiçik intervallarla hərəkət edən melodiyalar yaradır, bu isə Azərbaycan xalq musiqisinə xas olan xüsusiyyətlərdən biridir. Musiqişünas-alim Z.Səfərova yazır: "Xalq mahnılarının prinsipi əsasında Ü.Hacıbəylinin də melodiyası kiçik intonasiyalardan, tersiya intervalını aşmayan intonasiya hissəciklərdən ibarətdir. **(1. s.73)**

"Arşın mal alan" operettasının musiqili təfsirində xalq musiqisi üçün səciyyəvi olan metr-ritmik xüsusiyyətlərin zənginliyi Ü.Hacıbəylinin yaradıcılıq üslubuna xalq musiqisinin ritmik cəhətlərinin təsirinin maraqlı ifadəsidir. Əsər boyu 6/8, 3/4, 3/8 ölçüləri vasitəsilə musiqinin milli ruhu vurğulanır.

Ü.Hacıbəyli "Arşın mal alan" operettasında Azərbaycan xalq rəqslərini incəliklə işləyir.

Bəstəkar Qızların xorunda "Qaladan qalaya", Tellinin mahnısında "Güloğlan", Soltan bəyin kupletlərində "Canlar içindəki canım ay", Asyanın rəqsində isə "Tərəkəmə" xalq melodiyaları ilə operettanın musiqili dramaturgiyasını rəngarəng çalarlarla bəzəyir.

Xalq musiqisi sahəsində Ü.Hacıbəylinin yaradıcılıq axtarışları onun üslubunun formalaşmasında

əhəmiyyətli rol oynamışdır. Yaradıcılığının ilk mərhələlərində xalq musiqisindən sitat kimi istifadə edən bəstəkar hər zaman yenilənən nəzəri biliklər, xalq musiqisi sahəsində əldə etdiyi təcrübələr nəticəsində bu zəngin mənbəyə aid nümunələri artıq kortəbii olaraq köçürməkdən imtina edir. Ü.Hacıbəylinin hər bir əsərində xalq musiqisi əsasında bəstələdiyi melodiyaların sayəsində bu nümunələrin orijinal variantı tam dəyişikliyə uğrayır. Bu təcrübə bəstəkar yaradıcılığında üslub xüsusiyyətlərinin mühüm cəhəti kimi digər müəlliflərimizin də əsərlərinə sirayət etmişdir.

Ü.Hacıbəylinin 1937-ci ildə yazdığı "Koroğlu" operasında yaradıcılığı boyu əldə etdiyi ən böyük nailiyyətlər ifadə olunmuş, üslubuna xas olan keyfiyyətlər bitkin formada təcəssüm etdirilmişdir. Təbii ki, "Koroğlu" operasında parlaq nümayiş olunan bəstəkarlıq üslubu xalq yaradıcılığı ilə birbaşa əlaqəlidir. Qeyd etmək lazımdır ki, operada Ü.Hacıbəylinin yaradıcılıq üslubunun formalaşmasına xalq yaradıcılığının təsiri iki faktorla diqqəti cəlb edir: opera xalq dastanları əsasında yazılmış və əsərdə xalq yaradıcılığı nümunələri, aşıq musiqisi, mahnı və rəqs melodiyaları ustalıqla işlənmişdir. "Koroğlu", həmçinin qəhrəmanlıq xüsusiyyətlərinin təcəssümündə orijinal ifadə vasitələrinin kəşf olunması baxımından maraqlı əsərdir.

Məlum olduğu kimi, operanın qəhrəmanı Koroğlu el arasında aşıq kimi də tanınırdı. Bu cəhət onu Ü.Hacıbəylinin dastan əsasında yazdığı digər operalarından fərqləndirir. Beləki, əsərdə həm xalq qəhrəmanı, həm də aşıq obrazının xasiyyətnaməsi musiqinin ifadə vasitələri ilə mükəmməl yaradılmalı idi. Həmçinin Koroğlu obrazını səciyyələndirən melodiyalar da mərdlik və lirik xüsusiyyətlərə malik olmalı idi. Bütün bunların öhdəsindən, təbii ki, dahi Üzeyir bəy bacarıqla gəlmişdir.

"Koroğlu operasında aşıq üslubu bəstəkarın fərdi üslubunun əsas elementi kimi təqdim olunur. Operada Koroğlu obrazının xəlqiliyini ifadə etmək üçün aşıq musiqisindən istifadə əsas vəzifələrdən biri olmuşdur. Təsadüfi deyildir ki, qəhrəmanın xarakterinin açılmasında mühüm rol oynayan parçalarda aşıq musiqisi intonasiyalarına geniş yer verilir.

Üzeyir bəy operanın aşıq üslubunun müəyyən edilməsində zəngin yaradıcılıq irsi olan aşıq havalarına, ona aid metr-ritmik xüsusiyyətlərə müraciət etməklə xalq yaradıcılığı və onun ayrı-ayrı sahələrinin bədii yaradıcılıq üçün əhəmiyyətini vurğulamış və bununla da operada bəstəkarlıq üslubunun milli elementlərini nümayiş etdirmişdir. "Koroğlu" operasında xalq yaradıcılığı xüsusiyyətləri vasitəsilə maraqlı dramaturgiya yaratmağın mükünlüyünü sübut edən Ü.Hacıbəyli bu vasitə ilə xüsusi əhəmiyyətə malik olan üslub xüsusiyyətlərini formalaşdırmaq yollarını gələcək nəsil bəstəkarlarına təlqin etmişdir.

Ü.Hacıbəylinin üslubunu özlərinə örnək götürən digər Azərbaycan bəstəkarları yaradıcılıqlarında folklor nümunələrindən özünəməxsus şəkildə istifadə edərək əsərlərini rəngarəng çalarlarla zənginləşdirmişlər. Təsadüfi deyildir ki, müxtəlif janrlarda yazılan sənət əsərlərində bayatı, ağı və digər şeir nümunələrinin intonasiya ahəngi, həmçinin aşıq musiqisi xüsusiyyətləri bəstəkar üslubunun vacib amilləri olaraq diqqət cəlb edir və onun formalaşmasına birbaşa təsir göstərir.

Azərbaycan folkloruna olan böyük maraq görkəmli bəstəkarlarımızdan Müslüm Maqomayevin yaradıcılıq üslubunun formalaşmasında mühüm rol oynamışdır. Hələ Qori Müəllimlər Seminariyasında oxuduğu illərdə folklor nümunələrini təhlil və tədqiq edən Müslüm Maqomayev 300-dən artıq xalq mahnı və rəqsini nota köçürmüş, onları simfonikləşdirərək milli simfonizmin inkişafı sahəsində ilk addım atmışdır. Azərbaycan xalq melosu və folklor nümunələrindən bəhrələnməyi yaradıcılıq problemi kimi dəyərləndirən M.Maqomayevin simfonik musiqi janrındakı ilk təcrübələrindən – orkestr üçün "Ceyranı", "Turacı", "Əsgərani", "Azərbaycan çöllərində" əsərlərində, məhz folklor nümunələri bəstəkarlıq üslubunun elementlərini formalaşdıran mənbə kimi diqqəti cəlb edir. Həmin əsərlərdə bəstəkar xalq yaradıcılığı nümunələrinə həssaslıqla yanaşaraq onlardan məharətlə istifadə edir. Maraqlıdır ki, M.Maqomayevin orkestr əsərlərində həm xalq mahnılarının, həm də xalq rəqslərinin özünəməxsus inkişaflı zəngin melodiyaları sayəsində müxtəlif xarakterli obrazlar, janr xüsusiyyətləri yaranır.

Əgər milli simfonik musiqinin başlanğıcını Ü.Hacıbəylinin "Koroğlu" operasının simfonik epizodları təşkil edirdisə, simfonik təfəkkürdə xalq yaradıcılığı elementlərinin və milli xüsusiyyətlərin formalaşması prosesi də M.Maqomayevin xalq melosunun simfonik inkişafa uyğunlaşdırması vasitəsilə həyata keçirdi.

Milli dastanlarımız əsasında bəstələdiyi "Şah İsmayıl" operasında maraqlı kompozisiya quran M.Maqomayevin bu sahədə əldə etdiyi uğurları bəstəkarın folkloru dərindən bilməyi ilə bağlıdır. M.Maqomayev Ü.Hacıbəylinin yolunu davam etdirərək, məhz bu biliklərin sayəsində muğam əsaslı milli operanı yaratmışdır.

Ü.Hacıbəyli yaradıcılığından örnək götürən M.Maqomayev opera yazmağa başlayarkən muğam improvizasiyasına istinad prinsipinə (Şah İsmayılın və Ərəbzənginin partiyalarında) əsaslanmışdır. Bəstəkar sonradan operanın yeni redaksiyalarını işləyərək bir neçə nömrəni daha sərbəst xarakterli ariya, ariozo, reçitativ, ansambl nömrələri kimi təqdim etmişdir. Bununla belə əsərdə folklor əsaslı kompozisiya öz əhəmiyyətini qoruyub saxlayır. Bu da əsərin əvvəl folklor nümunəsi əsasında yazılması və melodiyalarda xalq musiqisi intonasiyalarından istifadə olunması ilə izah olunur.

M.Maqomayev operada özünün müəllif musiqisini artırmağa, improvizasiyaları isə (əsasən muğam improvizasiyalarını) imkan daxilində azaltmağa çalışmışdır. Bununla "muğam" operasını ümumavropa tipinə yaxınlaşdıraraq onu əhəmiyyətli elementlərlə zənginləşdirmişdir.

Operanın Uvertürasında kənar və orta hissələrin quruluşu, Çahargah muğamının ecazkar intonasiyaları, xalq rəqslərinə xas olan ritmik zənginliklər və digər elementlər bəstəkarın formalaşan yaradıcılıq üslubunun fərdiliyinin və fərqliliyinin göstərçisidir.

Operada lirik xətt xalq melosu elementləri ilə zənginləşdirilir. II pərdədən Şah İsmayılla Gülzarin duetini bəstəkar "Gözəllərin gözəli" xalq mahnısı əsasında yazmışdır. Mahnıda vals rəqsinə xas olan metr-ritmik xüsusiyyətlərin işlənməsi xalq melosu ilə klassik prinsipləri üzvi şəkildə əlaqələndirir. Operanın sonuncu xor nömrəsi də "Şəlalə" xalq melodiyasına əsaslanır. Beləliklə, M.Maqomayevin bəstəkarlıq üslubunda xalq yaradıcılığı, folklor nümunələrinin klassik Avropa musiqisi qanunauyğunluqları ilə sintezləşdirilməsi prosesi baş verir.

M.Maqomayev 1916-cı ildə yazdığı "Şah İsmayıl" operası üzərində dəfələrlə işləyərək mühüm yaradıcılıq axtarışlarının nəticəsində bəstəkarlıq üslubunu formalaşdırmağa çalışmışdır. Musiqi tənqidçiləri çox zaman bu operanı muğam operaları ilə klassik tipli operalar arasında "körpü" olduğunu qeyd edirlər. "Şah İsmayıl" operasını bəstəkarın "Nərgiz" operasında yeni yaradıcılıq üslubu nümayiş etdirmək üçün apardığı axtarışların ilk mərhələsi kimi də qiymətləndirmək olar.

Azərbaycan opera sənətində tamamilə yeni olan "Nərgiz" operasında artıq bitkin solo nömrələr, ansambllar klassik Avropa operası ənənələrinə uyğunlaşdırılır. Bununla yanaşı xalq obrazının canlandırılmasında bütün əsər boyu folklor əsaslı zəngin melodiyalar səslənir. Bu mənada, xüsusilə də xalq melodiyaları və rəqs nümunələrinin vasitəsilə xalqın obrazını tərənnüm edən xor epizodlarını qeyd etmək lazımdır. Bu cəhət bəstəkarın üslubuna xalq melosunun təsirini nümayiş etdirir. Musiqişünas Talıbzadə yazır: "Köhnə tipli Azərbaycan operasından fərqlənən bu yeni üslub özünü hər şeydən əvvəl kütləvi xalq səhnələrində göstərir. Partiturada çoxlu xor epizodları var. Xalqın hərtərəfli ümumiləşmiş obrazını yaratmaqda bəstəkara, məhz bu xor epizodları böyük kömək etmişdi. M.Maqomayev xalqın xarakterini təsvir etmək üçün mahnı, rəqs janrlarından istifadə etmişdir. Bunlar qəhrəmanlıq, çağırış səciyyəli marşa oxşar mahnı və xorlar, lirik, folklor üslublu melodiyalar, şən rəqslərdir." (**1. s.221)**

Beləliklə, qeyd etmək lazımdır ki, M.Maqomayev dərin məzmunlu, maraqlı, dolğun dramaturji inkişaflı daha parlaq əsərlər yaratmaq məqsədilə xalq yaradıcılığından, folklor nümunələrindən mənbə kimi istifadə edərək yaradıcılığını zənginləşdirmişdir. Yaradıcılıq imkanlarını yeni keyfiyyətlərlə və maraqlı təcrübələrlə inkişaf etdirən M.Maqomayevin əldə etdiyi nailiyyətlər milli bəstəkarlıq məktəbində bir sıra yeniliklərin başlanğıcı idi.

Yekun olaraq qeyd etmək lazımdır ki, xalq yaradıcılığı bəstəkarların yaradıcılıq üslubuna, ilk növbədə, mövzu baxımından təsir etmişdir. Xalq dastanları, aşıq şeirləri, əfsanə və nağıllar əsasında yaranmış musiqili əsərlər özünün mahiyyəti etibarilə bir xalqın zəngin mədəniyyətinin ifadəçisi olmuşdur. Ü.Hacıbəyli və M.Maqomayevin dastanlar əsasında yazdıqları operalarda çoxşaxəli inkişaf digər bəstəkarların yaradıcılığında da öz əksini tapmışdır.

Xalq yaradıcılığının müxtəlif xüsusiyyətləri birbaşa musiqi əsərlərinin əsasına nüfuz etmiş, onun ayrı-ayrı janrları – mahnılar, rəqs nümunələri, aşıq musiqisi melodik təxəyyülün inkişafında vasitəçi rol oynamışdır. Eyni zamanda xalq musiqisinin metr-ritmik, həmçinin melodik və harmonik xüsusiyyətləri bəstəkar üslubunda ifadə vasitələrinin əsasını təşkil etmişdir.

Ü.Hacıbəyli və M.Maqomayevin yaradıcılıq üslubuna xalq yaradıcılığı və onun müxtəlif janrlarının birbaşa təsiri, bu sahənin ətraflı öyrənilməsi, dərk edilməsi, mənimsənilməsi və musiqi əsərlərində tətbiqi sayəsində mümkün olmuşdur. Bunu həyata keçirmək üçün folklor nümunələri dərindən araşdırılmış, xalq musiqisi qanunauyğunluqları öyrənilmişdir. Xalq musiqisinin, mahnı və rəqslərin, muğamların nota alınması da öz növbəsində bu prosesi sürətləndirmişdir.

Xalq yaradıcılığı janrları – mahnı, rəqs və aşıq musiqisinin metr-ritmik xüsusiyyətləri, Azərbaycan xalq musiqisində mövcud olan punktir ritm, 6/8, 3/8 kimi ölçülər musiqi əsərlərinin intonasiya əsasına çevrilmişdir. Xüsusilə də mahnı janrında yazılan əsərlərdə bu cür elementlər üslub

xüsusiyyətinin əsas cəhəti kimi diqqəti cəlb edir. Ritmik fiqurasiyalarda kvarta-kvinta əlaqəsi, 6/8 ölçü, punktir ritm bütün bəstəkarların əsərlərində mütləq şəkildə istifadə olunur ki, bu da birbaşa xalq yaradıcılığı ilə əlaqənin göstərcisidir.

Xalq musiqisinin bəstəkar yaradıcılığında ifadə olunması müxtəlif mahnı və rəqslərin istifadəsilə özünü nümayiş etdirir. "Uzundərə", "Tərəkəmə", "Şalaxo", "Kikican", "Brilyant" və digər rəqslər, "Evləri var xana-xana", "Ay qadası", "Boynunda var sarılıq", "Əlində sazın qurbanı", "Gözəlim sənsən" və s. xalq mahnıları bəstəkar yaradıcılığı üçün qiymətli mənbə olaraq, onun üslub xüsusiyyətlərinin daha da zənginləşməsində mühüm rol oynamışdır.

Xalq yaradıcılığı nümunələri, eyni zamanda hər hansı bir obrazın təfsirində mühüm xüsusiyyət kimi istifadə olunur. Bu mənada, "Uzundərə" rəqsinin Məşədi İbad obrazının səciyyələnməsində əhəmiyyətini bir daha vurğulamaq lazımdır.

**Nəticə**

Beləliklə, Ü.Hacıbəyli və M.Maqomayevin əsərlərində xalq musiqisi, folklor elementlərinin təzahürü bəstəkar üslubunun formalaşması baxımından mühüm olaraq milli musiqi mədəniyyətimizin xəlqilik mahiyyəti ilə diqqət cəlb edən, klassik prinsiplərlə milli keyfiyyətləri özündə məharətlə sintez edən əsərlər qalereyası ilə zənginləşməsinə səbəb olmuşdur. Ü.Hacıbəyli və M.Maqomayevin üslubunda xalq yaradıcılığının əzəmətli izlərini daşıyan əsərlər tamaşaçı və dinləyici auditoriyalarının rəğbətini qazanaraq yaddaşlarda yaşamış və bu əsərlərdə folklor nümunələrinə səciyyəvi olan ahəngdarlıq bəstəkar üslubunun mühüm nailiyyəti olmuşdur.

## ƏDƏBİYYAT

1. Azərbaycan musiqi tarixi. II cild. Bakı, Elm, 2017
2. Azərbaycan musiqi tarixi. III cild. Bakı, Elm, 2018
3. Hacıbəyli Ü. Seçilmiş əsərləri. II cild. Bakı, Şərq-Qərb, 2015
4. Hüseynova T. Rus musiqi tarixi. Bakı Universiteti nəşriyyatı, 1991

***Naxçıvan Dövlət Universiteti,***
***sənətşünaslıq elmləri doktoru***
***E-mail:inaramaharramova@ndu.edu.az***

**Inara Maharramova**

## IN THE FORMATION OF THE CREATIVE STYLE OF UZEYIR HAJIBEYLI AND MUSLIM MAGOMAYEV THE ROLE OF FOLK MUSIC

Folklore develops on the basis of oral traditions, incorporating the unique creative thinking of each nation. Folklore also expresses in all its magnificence the creative possibilities belonging to any people. That's why folk music has always been the center of attention of creative people, artists who have mastered various fields of art have formed stylistic features specific to their creativity based on folklore examples. This formation infects the composer's creativity.

Folk creativity and its various genres have definitely found their embodiment in the style of Azerbaijani composers. Even in the first decades of the 20th century, attention to folk creativity, which is one of the main qualities in all fields of activity of U. Hajibeyli, and the idea of benefiting from it, was a priority issue for all our composers. Our composers who implemented this idea enriched almost all European music genres with features of folk music genres in their works and thus formed their own style.

Folk music and folklore samples were an invaluable source for U.Hajibeyli and M.Magomayev with their richness, our composers who benefited from this resource in a creative way formed different characteristics in their creative style and gave invaluable contributions to our national musical culture. However, it should be specially noted that both U. Hajibeyli and M.Magomayev turned to examples of folklore and folk music only with their creative imagination, and in all their works using this source, they showed features unique to their individual signatures, and made a great contribution to the development of national music. provided services.

The presented article examines the individual stylistic qualities of Uzeyir Bey Hajibeyli and

Muslim Magomayev, which are characteristic of their creativity and formed under the influence of folk music. The compositional structure, characteristics of the harmonic and melodic language, as well as the tonal relations of those works are highlighted.

**Keywords:** *folklore, folk music, creative style, individual stylistic features, genre*

**Инара Магеррамова**

**В ФОРМИРОВАНИИ ТВОРЧЕСКОГО СТИЛЯ УЗЕЙРА ГАДЖИБЕЙЛИ И МУСЛИМА МАГОМАЕВА РОЛЬ НАРОДНОЙ МУЗЫКИ**

Фольклор развивается на основе устных традиций, вбирая в себя уникальное творческое мышление каждого народа. Фольклор также выражает во всем своем великолепии творческие возможности, принадлежащие любому народу. Вот почему народная музыка всегда была в центре внимания творческих людей, художники, освоившие различные области искусства, формировали на фольклорных примерах стилистические особенности, присущие их творчеству. Это формирование заражает композиторское творчество.

Народное творчество и его различные жанры определенно нашли свое воплощение в стиле азербайджанских композиторов. Еще в первые десятилетия XX века внимание к народному творчеству, являющемуся одним из главных качеств во всех сферах деятельности У. Гаджибейли, и идея извлечения из него пользы были приоритетными для всех наших композиторов. Наши композиторы, реализовавшие эту идею, обогатили в своих произведениях черты народных музыкальных жанров почти все европейские музыкальные жанры и таким образом сформировали свой собственный стиль.

Народная музыка и фольклорные образцы были бесценным источником для У. Гаджибейли и М. Магомаева своим богатством, наши композиторы, творчески воспользовавшиеся этим ресурсом, сформировали различные характеристики в своем творческом стиле и внесли неоценимый вклад в нашу национальную музыкальную культуру. Однако следует особо отметить, что и У. Гаджибейли, и М. Магомаев обращались к образцам фольклора и народной музыки только с помощью своего творческого воображения, и во всех своих произведениях, используя этот источник, они проявляли черты, присущие их индивидуальным почеркам, и внесли большой вклад в развитие национальной музыки. предоставленных услуг.

В представленной статье рассматриваются индивидуальные стилистические качества Узеир бека Гаджибейли и Муслима Магомаева, характерные для их творчества и сформированные под влиянием народной музыки. Освещены композиционная структура, особенности гармонического и мелодического языка, а также тональные отношения этих произведений.

Ключевые слова: фольклор, народная музыка, творческий стиль, индивидуальные стилистические особенности, жанр